SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ STRATEJİ İNKİŞAF PLANI 2024-2028

MÜNDƏRİCAT

Rektorun təqdimatı.....4
Universitet haqqında..... 5
Missiyamız..... 6
Vizyonumuz..... 6
Dəyərlərimiz.....6
Məqsəd və strateji hədəflər.....7
Sumqayıt Dövlət Universitetinin GZİT (SWOT) analizi 9

REKTORUN TƏQDİMATI

Ölkənin böyük sənaye mərkəzi olan Sumqayıt şəhərində yerləşən Sumqayıt Dövlət Universiteti Azərbaycan Sənaye Universitetinin bazasında yaradılmış və bu sahədə bir sıra ənənələrə sahib olan ali təhsil müəssisəsidir. Universitetimiz ölkə üzrə kadr potensialının artırılmasını, dəyişən dünyanın yeni tələblərinə uyğun təlim-tədris və elmi-tədqiqat istiqamətləri üzrə töhfə verilməsini fəaliyyətində rəhbər prinsip olaraq müəyyən etmişdir. Universitetin beşillik strateji inkişaf planının formalaşması da məhz bu istiqamətlər üzrə inkişafa xidmət etmək məqsədilə hazırlanmışdır.

Strateji İnkişaf Planı universitetimizin missiyası və vizyonu istiqamətində müəyyən etdiyimiz strateji hədəflərimizə çatmaq üçün hazırlanmış hərtərəfli yol xəritəsidir. Bu plan qlobal səviyyədə baş verən dəyişikliklərə uyğun olaraq ali təhsil məkanında müəyyən edilən ehtiyacları özündə ehtiva edir. Sürətli iqtisadi dəyişikliklər, artan sosial tələblər, yüksək standartları təmin edən texnoloji yeniliklər ali təhsil mühitinin bütün aspektlərini əhatə etdiyi üçün universitetimiz SİP-də müəyyən etdiyi məqsəd və hədəflərin icrasını təmin etməyə xüsusi diqqət yetirir. Bu strateji məqsədlər universitetimizin daha güclü, daha innovativ və beynəlxalq səviyyədə tanınan bir quruma çevrilməsi istiqamətində atacağı addımları müəyyənləşdirir.

Strateji məqsədlər ilə bağlı üzərimizə düşən öhdəliklərin həyata keçirilməsi və struktur bölmələrin müştərək fəaliyyətinin qurulması, izlənilməsi və monitorinqi SİP-dən irəli gələn müddəaların təmin olunmasına yönəlmişdir. SİP-də səmərəli idarəetmə, təhsilin məzmununun yenilənməsi və təkmilləşdirilməsi, kadr və elmi-tədqiqat potensialının artırılması, beynəlmiləlləşmə və brendləşmənin sürətləndirilməsi, ömürboyu təhsil xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi və dayanıqlı inkişafın təmin olunması əsas prioritetlər olaraq irəli sürülür. Bu prioritet istiqamətlər üzrə fəaliyyətlərin həyata keçirilməsi universitetimizin dayanıqlı inkişafını və qlobal təhsil məkanında lider mövqeyinə gəlməsini dəstəkləyəcək, bütün sahələrdə keyfiyyət və uğuru artıracaqdır.

Strateji inkişaf məqsədlərinə nail olmaqda verdikləri töhfəyə və əməkdaşlığa görə bütün akademik və inzibati heyətimizə, tələbələrimizə və maraqlı tərəflərə təşəkkürümü bildirirəm.

Rektor, Rüfət Əzizov

UNİVERSİTET HAQQINDA

Sumqayıt Dövlət Universitetinin əsası 1962-ci ildə SSRİ Nazirlər Sovetinin qərarına əsasən Azərbaycan Neft və Kimya İnstitutunun filialı kimi qoyulmuşdur. Bu təhsil müəssisəsi 1975-ci ilə qədər filial kimi fəaliyyət göstərmiş, 1975–1992-ci illərdə isə Ali Texniki Təhsil Məktəbi adı altında fəaliyyətini davam etdirmişdir. 1992-ci ildə isə Azərbaycan Sənaye İnstitutu adlandırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universiteti yaradılmışdır. 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun bəzi filialları ləğv edildikdən sonra Sumqayıt və Salyan filialları tələbələrinin Sumqayıt Dövlət Universitetinin tələbələri sırasına daxil edilməsi, filialların müəllim və texniki heyətinin müsabiqə yolu ilə universitetdə işlə təmin olunması SDU-nun əhatə dairəsini daha da genişləndirmişdir.

Sumqayıt Dövlət Universitetində 6 fakültə (İqtisadiyyat və idarəetmə, Riyaziyyat, Mühəndislik, Təbiət elmləri, Tarix və coğrafiya, Filologiya), 24 kafedra fəaliyyət göstərir. Universitetdə ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri, həmçinin elmlər doktorluğu proqramları üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Bundan əlavə, Tədris metodiki mərkəz, Heydər Əliyev mərkəzi, İnformasiya texnologiyaları mərkəzi, Karyera və məzunlarla iş mərkəzi, Əlavə təhsil mərkəzi, Dil və tərcümə mərkəzi, İnklüziv təhsil mərkəzi, Magistratura və doktorantura şöbəsi, Elmi kitabxana, Ümumi şöbə, Mətbuat və ictimaiyyətlə əlaqədar xidməti şöbəsi, Keyfiyyət təminatı və strategiya şöbəsi, Layihələrin idarəolunması şöbəsi, Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi, Kadrlar şöbəsi, Texniki-təchizat departamenti, Mühasibatlıq şöbəsi, Təsərrüfat şöbəsi, Mülki müdafiə və yanğından mühafizə qərargahı, Redaksiya və nəşr işləri kimi struktur bölmələr fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.02.2016-cı il tarixli 30 saylı qərarı və Elm və Təhsil Nazirliyinin 04.03.2016-cı il tarixli 130 nömrəli əmri ilə Sumqayıt Dövlət Texniki Kolleci Sumqayıt Dövlət Universitetinin nəzdinə verilmiş və hal-hazırda həmin ad altında fəaliyyətini davam etdirir.

MİSSİYAMIZ

Multidisiplinar bir yanaşma ilə sənaye, texnologiya və sosial inkişafa töhfə verəcək mütəxəssislər hazırlamaq

VİZYONUMUZ

Sənaye və texnologiyanın inteqrasiyasını təmin edərək təhsil və tədqiqat yolu ilə sosial problemlərə innovativ həll yolları gətirən yüksək reputasiyaya sahib aparıcı bir universitet olmaq

DƏYƏRLƏRİMİZ

Ədalətlilik

Universitetimiz bütün fərdlərə bərabər imkanlar təmin etmək, ayrı-seçkiliyin bütün formalarını rədd etmək, ədalətli təhsil və iş mühiti təmin etmək prinsipini qəbul edir.

Şəffaflıq

Qərarların qəbulu prosesində açıqlıq və hesabatlılıq prinsiplərinə əməl edilir. Akademik və inzibati təyinatlarda və ya yüksəlişlərdə bilik və təcrübə əsas götürülməklə imkanlar təqdim edilir.

Tələbə mərkəzlilik

Universitetdə idarəetmə və təlim-tədris prosesində təhsilalan mərkəzli təhsil yanaşması mənimsənilir.

Bərabərlik, müxtəliflik və inklüzivlik

Universitetimizdə bərabərliyi, müxtəlifliyi və inklüzivliyi təşviq etməklə hamı üçün ədalətli və dəstəkləyici öyrənmə və iş mühiti təmin etmək hədəflənir.

Akademik dürüstlük

Universitetimizdə akademik dürüstlük ön plana çəkilərək təhsilalanların və təhsilverənlərin etik davranışları təşviq edilir və dəstəklənir.

Etik dəyərlərə sadiqlik

Universitet üzvləri öhdəliklərində olan fəaliyyətləri icra edərkən təşkilati, ölkədaxili və qlobalsəviyyədə qəbul edilmiş ümumi etik dəyər və prinsiplərə qarşı həssaslıq göstərir.

Dayanıqlılıq

Universitetimiz bütün fəaliyyətlərində dayanıqlılıq prinsiplərinə riayət etməklə ekoloji tarazlığı qoruyub saxlamaq və cəmiyyətə daimi fayda təmin etmək öhdəliyi götürür.

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN 2024-2028-Cİ İLLƏR ÜZRƏ STRATEJİ İNKİŞAF PLANI

MƏQSƏD 1. SƏMƏRƏLİ İDARƏETMƏ SİSTEMİ QURMAQ

Strateji hədəf 1.1: Strateji inkişaf planında nəzərdə tutulan fəaliyyətlərin səmərəli icrası məqsədi ilə SDU-nun təşkilati strukturu təkmilləşdiriləcəkdir.

Strateji hədəf 1.2: SDU-nun struktur bölmələrinin fəaliyyətini tənzimləyən daxili qaydaların məzmunu, məsuliyyət bölgüsü və cavabdehliyi sistemləşdiriləcəkdir.

Strateji hədəf 1.3: SDU-nun keyfiyyət təminatı sistemi bütün struktur bölmələri və fəaliyyətləri əhatə etməklə yenilənəcək və tətbiq oluna bilən monitorinq və hesabatlılıq sistemi qurulacaqdır.

Strateji hədəf 1.4: Resurslar və büdcə planlaşdırılması strateji inkişaf planı və illik fəaliyyət planına uyğunlaşdırılacaqdır.

MƏQSƏD 2. TƏHSİLİN MƏZMUNUNU VƏ QİYMƏTLƏNDİRMƏNİ TƏKMİLLƏŞDIRMƏK

Strateji hədəf 2.1: Mövcud ixtisasları əmək bazarının tələblərinə uyğunlaşdırmaq üçün təhsil proqramları beynəlxalq (ASİİN və digərləri) və yerli (TKTA) akkreditasiyadan keçəcəkdir.

Strateji hədəf 2.2: Müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığını həyata keçirmək üçün məzmun yenilənəcək və yeni məzmunlu proqramlar hazırlanacaqdır (yeni məzmunlu proqramların hazırlanması üçün mövcud imkanlardan - SABAH qrupları, “Code Academy”, “Sabah.hub”, ikili diplom proqramları istifadə ediləcək, məzmunda praktikliyi və təcrübə dövrlərini artırmaq üçün əmək bazarı iştirakçıları - BP, STP, SOCAR, AZƏRİŞIQ və digərləri ilə müştərək proqramlar həyata keçiriləcəkdir)..

Strateji hədəf 2.3: Yerli və xarici mütəxəssislərin cəlb olunması ilə yeni metodik vəsaitlər, təlimatlar, tövsiyə materialları və təlim resursları hazırlanacaqdır.

Strateji hədəf 2.4: Tələbə nailiyyətlərinin qiymətləndirilməsi üçün qabaqcıl təcrübələr öyrəniləcək və SDU-da tətbiq ediləcəkdir.

Strateji hədəf 2.5: Kitabxana fondu yeni ehtiyaclara uyğun yenilənəcək, kitabxananın elektronlaşdırılması sürətlənəcək və beynəlxalq bazalara çıxış təmin olunacaqdır.

MƏQSƏD 3. KADR POTENSIALINI ARTIRMAQ

Strateji hədəf 3.1: Şəffaf işəqəbul prosesinin qurulması və səmərəliləşdirilməsi üçün yeni qaydalar hazırlanacaq və tətbiq ediləcəkdir.

Strateji hədəf 3.2: Yeni yüksək potensiallı kadrların (iş dünyası, ölkə xaricindən və s.) cəlb olunması üçün mexanizmlər hazırlanacaqdır.

Strateji hədəf 3.3: Mövcud heyətin peşəkar inkişafını yüksəltməyə əsaslanan davamlı peşəkar inkişaf sistemi qurulacaq və tətbiq ediləcəkdir.

Strateji hədəf 3.4: İllik fəaliyyət planlarının icrası zamanı nəticə indikatorlarını nəzərə alan, əlavə bilik və bacarıq tələb edən vəzifələrin uğurla yerinə yetirilməsini əhatə edən diferensial və motivasiya edici əmək haqqı sistemi hazırlanacaq və tətbiq ediləcəkdir.

.

MƏQSƏD 4. ELM VƏ İNNOVASİYA POTENSİALINI GÜCLƏNDİRMƏK

Strateji hədəf 4.1: Mövcud tədqiqat infrastrukturu (laboratoriya) yenilənəcəkdir.

Strateji hədəf 4.2: SDU-nun və xarici universitetlərin tədqiqatçılarının birgə elmi-tədqiqatlar həyata keçirməsi təşkil ediləcəkdir.

Strateji hədəf 4.3: SDU-da professor-müəllim heyətinin elmi tədqiqat fəaliyyətinin təşviqi və mükafatlandırılması mexanizmi hazırlanacaq və beynəlxalq elmi-metrik bazalarda (SCOPUS, Web of Science) indekslənən jurnallarda məqalələrinin dərc olunması dəstəklənəcəkdir.

Strateji hədəf 4.4: SDU-nun müəllim-tələbə heyətinin müəllifi olduğu elmi tədqiqat işlərinə qoyulan tələbləri, vəsatət qaldırmaq üçün meyarları və s. əks etdirən mexanizm hazırlanacaqdır.

Strateji hədəf 4.5: Yerli və beynəlxalq elmi konfranslar təşkil ediləcəkdir.

MƏQSƏD 5. BEYNƏLMİLƏLLƏŞMƏ VƏ BRENDLƏŞMƏNİ SÜRƏTLƏNDİRMƏK

Strateji hədəf 5.1: SDU-da tədrisdə ingilis dilinin istifadəsi artırılacaq və prioritet ixtisaslarına uyğun olaraq beynəlxalq ikili diplom proqramları həyata keçiriləcəkdir.

Strateji hədəf 5.2: Beynəlxalq mübadilə proqramları vasitəsilə tələbə və professor-müəllim heyətinin mobilliyi təmin ediləcəkdir.

Strateji hədəf 5.3: SDU-nun beynəlxalq elmi-tədqiqat və tədris ilə bağlı layihələrdə, qrant müsabiqələrində və digər beynəlxalq tədbirlərdə davamlı iştirakını təmin edən mexanizmlər hazırlanacaqdır.

Strateji hədəf 5.4: Beynəlxalq reytinqlərdə (QS, THE və s.) iştirakı təmin etmək və universitetin mövqeyini möhkəmləndirmək üçün çoxşaxəli mexanizmlər hazırlanacaqdır.

Strateji hədəf 5.5: Əcnəbi tələbələr və müəllimlərin cəlbini sürətləndirən mexanizmlər hazırlanacaq və tətbiq olunacaqdır.

MƏQSƏD 6. DAYANIQLI İNKİŞAFI TƏMİN ETMƏK VƏ ÖMÜRBOYU TƏHSİL XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİNİ SÜRƏTLƏNDİRMƏK

Strateji hədəf 6.1: Keyfiyyətli və innovativ öyrənməni təmin etməklə sənaye imkanlarını genişləndirmək və cəmiyyətin ömürboyu öyrənmə marağını gücləndirmək məqsədi ilə "Ömürboyu təhsil mərkəzi" yaradılacaqdır.

Strateji hədəf 6.2: Dayanıqlı inkişaf üzrə tədqiqat, təhsil və sosial əməkdaşlığı təşviq etmək məqsədilə "Dayanıqlı İnkişaf Mərkəzi" yaradılacaqdır.

Strateji hədəf 6.3: İş dünyası və cəmiyyətin ehtiyaclarına uyğun araşdırma və maarifləndirmə aparılacaqdır.

Strateji hədəf 6.4: Universitetin profilinə uyğun sahələrdə cəmiyyətin tələblərinə uyğun olan proqramlar (qısamüddətli kurslar və s.) hazırlanacaq və tətbiq ediləcəkdir.

Strateji hədəf 6.5: Təhsil proqramlarının məzmununda dayanıqlı inkişaf hədəflərinin nəzərə alınması təmin ediləcəkdir.

Strateji hədəf 6.6: Tələbə və məzunların karyera hədəflərinə nail olmalarına dəstək olmaq, əmək bazarı ilə əlaqələr qurmaq və iş axtarma proseslərinə rəhbərlik edilməsi məqsədi ilə Karyera və məzunlarla iş mərkəzinin işi təkmilləşdiriləcəkdir.

MƏQSƏD 7. İNFRASTRUKTUR, MADDİ-TEXNİKİ BAZA VƏ RƏQƏMSALLAŞMANI İNKİŞAF ETDİRMƏK

Strateji hədəf 7.1: Universitet heyətinin effektiv çalışması, eləcə də təhsilalanların öyrənmə, tədqiqat və sosial qarşılıqlı əlaqəsi və inklüziv təhsilin təşkili üçün infrastruktur tədricən yenilənəcəkdir.

Strateji hədəf 7.2: Yeməkxana mühiti və idman meydançası yenilənəcəkdir.

Strateji hədəf 7.3: Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədilə auditoriyalar lazımi avadanlıqlarla təchiz olunacaqdır.

Strateji hədəf 7.4: Elektron universitet və elektron sənəd dövriyyəsi sistemi qurulacaqdır.

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN GZİT (SWOT) ANALİZİ

Güclü tərəflər:

- Sumqayıt şəhərində yerləşən tək ali təhsil müəssisəsi olması
- Ölkənin ən böyük və nüfuzlu sənaye müəssisələri ilə əhatə olunması
- Sənaye müəssisələri ilə sıx əməkdaşlıq etməsi
- Yaşıllıqlarla əhatə olunmuş böyük kampusunun olması
- Müasir tələblərə cavab verən yataqxanasının olması
- Təhsil proqramlarının məzmununun yenilənməsi və təkmilləşdirilməsi
- Uğurlu karyera planlamasına dəstəyin həyata keçirilməsi

Zəif tərəflər:

- Tədrisin yalnız Azərbaycan dilində aparılması
- Professor-müəllim heyətinin bir hissəsinin peşə kompetensiyalarının dövrün tələblərinə cavab verəcək səviyyədə olmaması
- Elmi-tədqiqat göstəricilərinin zəif olması
- Beynəlxalq əməkdaşlığın/beynəlmiləlləşmənin qənaətbəxş səviyyədə olmaması
- Tədrisdə və sənəd dövriyyəsində elektronlaşmaya tam keçidin təmin olunmaması
- Tədris-köməkçi heyətin nisbətinin uyğunsuzluğu
- Fiziki sahə və infrastruktur problemi olan korpusun olması
- Məzunlarla əlaqənin qənaətbəxş səviyyədə olmaması

İmkanlar:

- Sənaye şəhərində yerləşən yeganə universitet olaraq istehsal ekosisteminə yaxın olması və əməkdaşlıq imkanlarının yaradılması üçün fürsətlər təmin etməsi
- Sənaye müəssisələri ilə sıx əməkdaşlıq sayəsində yeni ortaq layihələrin icrası
- Sənaye müəssisələri ilə əməkdaşlıq imkanlarından istifadə etməklə tədrisdə tətbiqi dərslərin artması və staj imkanlarının çoxalması
- Ölkədə ixtisaslı kadrlara olan ehtiyacın artması
- Şəhərdəki yeganə ali təhsil müəssisəsi olaraq sənayenin və digər sektordakı təşkilatların ehtiyaclarına uyğun qısamüddətli kurslar və sertifikat proqramları təşkil edərək iş dünyasına və cəmiyyətin digər təbəqələrinə xidmətlər göstərmək imkanının olması
- Məzmunun yenilənməsi və təkmilləşdirilməsini həyata keçirməklə tədrisin beynəlxalq akkreditasiya və keyfiyyət standartlarına uyğun formaya gətirilməsi və bununla da əcnəbi tələbə və akademik heyət üçün cəlbediciliyinin artması
- Dövlət tərəfindən ali təhsildə əlçatanlığın artırılması məqsədi ilə qəbul planlarının artırılması

Təhdidlər:

- Qlobal və yerli universitetlər arasında artan rəqabət, ali təhsil müəssisələrinin sayının artması ilə tələbə cəlbində yarana biləcək çətinliklər
- Keyfiyyətli kadrların cəlbində yarana biləcək çətinliklər
- Büdcənin əsas hissəsinin təhsil haqlarından formalaşması
- Tədqiqat və inkişaf layihələri üçün maliyyə resurslarının azlığı
- Onlayn təhsilin qlobal olaraq inkişaf etməsi
- Bürokratik maneələr

Sumqayıt Dövlət Universitetinin 2024-2028-ci illər üzrə

Strateji İnkişaf Planı

Məqsəd	Strategiyalar/ Hədəflər	Hədəf meyarlar/ icra müddəti	İcradan məsul struktur bölmə	Məqsədlərdən ümumi məsul şəxs(lər)
SM1: Səmərəli idarəetmə sistemini qurmaq	1.1 Strateji inkişaf planında nəzərdə tutulan fəaliyyətlərin səmərəli icrası məqsədi ilə SDU-nun təşkilati strukturunun təkmilləşdirməsi	• Təşkilati strukturu SİP-ə uyğunlaşdırmaq – 80% (İyun, 2025) • SDU-nun "əməliyyatların idarəolunması" mexanizmlərinin sənədinin hazırlanması və təsdiqi – 100% (Dekabr, 2024)	Kadrlar şöbəsi	**Rektor**
	1.2 SDU-nun struktur bölmələrinin fəaliyyətini tənzimləyən daxili qaydaların məzmunun, məsuliyyət bölgüsünün və cavabdehliyin sistemləşdirilməsi	• "Əməliyyatların idarəolunması" mexanizminə uyğun olaraq daxili qaydaları yeniləmək – 100% (İyun, 2025) • Vəzifə təlimatlarının yenilənməsi və tətbiqi – 100% (İyun, 2025)	Kadrlar şöbəsi	
	1.3 SDU-nun keyfiyyət təminatı sisteminin bütün struktur bölmələri və fəaliyyətləri əhatə etməklə yenilənməsi, tətbiq oluna bilən monitorinq və hesabatlılıq sisteminin qurulması	• Keyfiyyət təminatı sistemini yeniləmək və tətbiqini həyata keçirmək – 100% (Dekabr, 2024); • Təkrar akkreditasiyada uğur qazanmaq – 75% (Dekabr, 2024) • Maraqlı tərəflərin idarəetmə sistemindən məmnunluq dərəcəsini ölçmək – 70% (Mart, 2025) • Maraqlı tərəflərin idarəetmə sistemində iştirakını təmin etmək – 75% (Dekabr, 2024)	Keyfiyyət təminatı və strategiya şöbəsi	
	1.4 Resursların və büdcə planlaşdırılmasının strateji inkişaf planı və illik fəaliyyət planına uyğunlaşdırılması	• Büdcə planlaşdırılmasını SİP-ə uyğunlaşdırmaq – 80% (Yanvar, 2025)	Texniki-təchizat departamenti Keyfiyyət təminatı və strategiya şöbəsi	

SM2: Təhsilin məzmununu və qiymətləndirməni təkmilləşdirmək	2.1 Mövcud ixtisasları əmək bazarının tələblərinə uyğunlaşdırmaq üçün ali təhsil proqramlarının beynəlxalq (ASİİN və digərləri) və yerli (TKTA) akkreditasiyadan keçirilməsi	• Beynəlxalq akkreditasiyadan keçmiş proqram sayı – 20% (Dekabr, 2028) • Yerli akkreditasiyadan keçmiş proqram sayı – TKTA-nın imkanlarına uyğun olaraq 100% (Dekabr, 2028)	Tədris Metodik Mərkəz Keyfiyyət təminatı və strategiya şöbəsi	**Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorluq** **Elm və innovasiyalar üzlər prorektorluq** **Texniki-təchizat departamenti**
	2.2 Müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığını həyata keçirmək üçün yeni məzmunlu proqramların hazırlanması	• "Code Academy" – təhsilalanların sayını hər il 10% artırmaq (Dekabr, 2028) • Sabah qruplarının universitetdəki əhatə dairəsi - 5% (Dekabr, 2028) • Xarici universitetlər ilə ikili diplom proqramı - 4 proqram (Dekabr, 2028) • BP ilə qrant müqaviləsi əsasında magistratura səviyyəsində hər il 15 mütəxəssisin hazırlanması (Dekabr, 2028) • STP, SOCAR, AZMADE Group ilə birgə dual proqramların təşkili - 2025-ci ildən başlayaraq hər il ən azı 200 tələbənin dual proqramlara cəlb olunması	Karyera və məzunlarla iş Mərkəzi Tədris Metodik Mərkəz Layihələrin idarə olunması şöbəsi	
	2.3 Yerli və xarici mütəxəssislərin cəlb olunması ilə yeni metodik vəsaitlər, təlimatlar, tövsiyə materiallarının və təlim resurslarının hazırlanması	• Hazırlanmış müasir metodik vəsait, təlim resursları və tövsiyə materiallarının sayı – 40 vəsait (Dekabr, 2028) • Beynəlxalq nəşrlərin tərcüməsi – 20 nəşr (Dekabr, 2028)	Tədris Metodik Mərkəz Fakültələr	
	2.4 Tələbə nailiyyətlərinin qiymətləndirilməsi üçün qabaqcıl təcrübələrin öyrənilməsi və SDU-da tətbiqinin həyata keçirilməsi	• Yeni qiymətləndirmə mexanizmasının hazırlanması- 1 sənəd (Dekabr, 2024) • Yeni qiymətləndirmə vasitələrinin tətbiqinin əhatə dairəsi – 100% (Dekabr, 2025)	Tədris Metodik Mərkəz Fakültələr	
	2.5 Kitabxana fondunun yeni ehtiyaclara uyğun yenilənməsi, kitabxananın elektronlaşdırılmasının sürətlənməsi və beynəlxalq bazalara çıxışın təmin olunması	• Kitabxana fonduna daxil olmuş yeni kitabların sayının ötən ilə nisbətdə 10% artırılması (2024-2028) • Beynəlxalq bazalara çıxışın təmin olunması (Dekabr, 2025) • Kitabxananın elektronlaşdırılması (Dekabr, 2028)	İnformasiya Texnologiyaları Mərkəzi Magistratura və doktorantura şöbəsi	

SM3: Kadr potensialını artırmaq	3.1. Şəffaf işəqəbul prosesinin qurulması və səmərəliləşdirilməsi üçün yeni qaydaların hazırlanması və tətbiqi	• Kadrlar şöbəsinin işinin təkmilləşdirilməsi – 100% (Dekabr, 2024) • İşə qəbul qaydalarının təkmilləşdirilməsi – 100% (Dekabr, 2024)	Kadrlar şöbəsi Keyfiyyət təminatı və strategiya şöbəsi	**Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorluq** **Elm və innovasiyalar üzrə prorektorluq**
	3.2 Mövcud heyətin peşəkar inkişafını yüksəltməyə əsaslanan davamlı peşəkar inkişaf sisteminin qurulması və tətbiqi	• Peşəkar inkişaf sistemini tətbiq etmək – 100% (Sentyabr, 2026) • İngilis dili bacarıqlarının təkmilləşdirilməsi məqsədilə professor-müəllim heyətinin təlimlərə cəlb olunması - hər il professor-müəllim heyətinin 10%-i • Rəqəmsal bacarıqlar təliminə cəlb olunma - hər il professor-müəllim heyətinin 10%-i • İxtisas, idarə etmə və pedaqoji təlimlərə cəlb olunma, hər il professor-müəllim heyətinin 20%	Tədris metodik mərkəz Keyfiyyət təminatı və strategiya şöbəsi Kadrlar şöbəsi	
	3.4. İllik fəaliyyət planlarının icrası zamanı nəticə indikatorlarını nəzərə alan, əlavə bilik və bacarıq (yeni məzmun, ingiliscə tədris, SCOPUS və WoS indeksli beynəlxalq jurnallarda nəşr olunan məqalələr və s.) tələb edən vəzifələrin uğurla yerinə yetirilməsini əhatə edən differensial və motivasiya edici əmək haqqı sisteminin hazırlanması və tətbiqi	• Diferensial əmək haqqı sisteminə dair mexanizmin hazırlanması - 1 sənəd (Dekabr, 2024) • Diferensial əmək haqqı sisteminin tətbiqi – 100% (Yanvar, 2025)	Magistratura və doktorantura şöbəsi Kadrlar şöbəsi	
SM4: Elm və innovasiya potensialını gücləndirmək	4.1. Mövcud tədqiqat infrastrukturunun (laboratoriya) yenilənməsi	• Mövcud laboratoriyaların yenilənməsi - hər il 2 ədəd olmaqla (2028)	Texniki-təchizat departamenti Rektorun müşaviri	**Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorluq**
	4.2. SDU-nun və xarici universitetlərin tədqiqatçılarının birgə elmi-tədqiqatlarının aparılmasının təşkili (elmi məqalələrinin və materiallarının yüksək indeksli jurnallarda və konfrans toplularında nəşr edilməsi)	• 2023/24-cü tədris ilindən başlayaraq əvvəlki ilə nisbətdə sayı 20% artırmaqla	Magistratura və doktorantura şöbəsi Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi	
	4.3. SDU-nun professor-müəllim heyətinin elmi tədqiqat fəaliyyətinin təşviq və mükafatlandırma	• Hazırlanmış mexanizm sənədi - 1 sənəd (Dekabr, 2024)	Magistratura və doktorantura şöbəsi	

	mexanizminin hazırlanması və beynəlxalq elmi-metrik bazalarda SCOPUS və Web of Science-da indekslənən jurnallarda məqalələrinin dərc olunmasının təşkili	• SCOPUS və Web of Science beynəlxalq məlumat bazalarında indekslənən jurnallarda nəşr olunmuş və ya qəbul edilmiş tədqiqat işləri – əvvəlki ilə nisbətdə sayı 20% artırılmaqla ümumilikdə 200 məqalə (2024-2028)	Fakültələr	**Elm və innovasiyalar üzrə prorektorluq** **Rektor müşaviri**
	4.4. SDU müəllim-tələbə heyətinin müəllifi olduğu elmi tədqiqat işlərinə qoyulan tələbləri, vəsatət qaldırmaq üçün meyarları və s. əks etdirən mexanizmlərin hazırlanması	• Hazırlanmış mexanizm sənədi - 1 sənəd (Dekabr, 2024)	Magistratura və doktorantura şöbəsi	
	4.5. Yerli və beynəlxalq elmi konfransların təşkili	• İllik 2 yerli konfransın təşkili (2024-2028, müntəzəm) • İldə 1 beynəlxalq forum və ya konfransın təşkili (2024-2028, müntəzəm)	Magistratura və doktorantura şöbəsi	
SM5: Beynəlmiləlləşmə və emeşeləşməni sürətləndirmək	5.1. Tədrisdə ingilis dilinin istifadəsinin artırılması və prioritet ixtisaslara uyğun olaraq ikili diplom proqramlarının həyata keçirilməsi	• İngilis dilində tədrisi aparılan proqramların əhatə dairəsi – 10 proqram (2024-2028) • İkili proqramlar – 4 proqram (2028)	Tədris Metodik Mərkəz Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi Fakültələr	**Beynəlxalq əlaqələr üzrə prorektorluq**
	5.2. Beynəlxalq mübadilə proqramları vasitəsilə tələbə və professor-müəllim heyətinin mobilliyinin təmin edilməsi	• Beynəlxalq mübadilə proqramlarında iştirak etmiş tələbə sayı – ildə minimum 5 tələbə (2024-2028) • Beynəlxalq mübadilə proqramlarında iştirak etmiş əməkdaş sayı – ildə minimum 3 nəfər (2024-2028)	Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi Layihələrin idarə olunması şöbəsi Fakültələr	
	5.3. Universitetin beynəlxalq elmi-tədqiqat və tədris ilə bağlı layihələrdə, qrant müsabiqələrində və digər beynəlxalq tədbirlərdə davamlı iştirakının təmin edən mexanizmlərin hazırlanması	• Hazırlanmış mexanizm - 1 sənəd (Dekabr, 2024) • Universitetin iştirak etdiyi beynəlxalq layihələrin sayı - 5 (2024-2028).	Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi Layihələrin idarə olunması şöbəsi	

	5.4. Beynəlxalq reytinqlərində (QS, THE və s.) iştirakı təmin etmək və universitetin mövqeyini möhkəmləndirmək üçün çox şaxəli mexanizmlərin hazırlanması	• Beynəlxalq reytinqlər ilə bağlı fəaliyyət planı – illik 1 FP (2024-2028) • QS qlobal reytinqlərdə iştirak (dünya və Avropa) (2025-2028) və mövqeyin yaxşılaşdırılması (2028) • THE beynəlxalq reytinqlərdə iştirak ("Impact", "Subject", WUR) (2024-2028) və mövqeyin yaxşılaşdırılması (2028) • "UI GreenMetric World University" Reytinqində iştirak və mövqeyin yaxşılaşdırılması – hər il (2028)	Layihələrin idarəolunması şöbəsi Karyera Mərkəzi Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi Keyfiyyət təminatı və strategiya şöbəsi	
	5.5. Əcnəbi tələbələr və müəllimlərin cəlbini sürətləndirən mexanizmlərin hazırlanması və tətbiq olunması	• Əcnəbi tələbələrin sayı - 100 (2024-2028) • Əcnəbi müəllimlərin sayı – 20 (2024-2028) • Əcnəbi tələbə qəbulunda yerli və xarici vasitəçi şirkətlərin xidmətindən istifadəyə dair - 1 müqavilə - 100% (Dekabr, 2025)	Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi	
SM6: Dayanıqlı inkişafı təmin etmək və ömürboyu təhsil xidmətlərinin göstərilməsini sürətləndirmək	6.1. Keyfiyyətli və innovativ öyrənməni təmin etməklə sənaye imkanlarını genişləndirmək və cəmiyyətin ömürboyu öyrənmə marağını gücləndirmək məqsədi ilə "Ömürboyu təhsil mərkəzi"nin yaradılması;	• SDU-da fəaliyyət göstərən "Əlavə təhsil mərkəzi"nin "Ömürboyu öyrənmə mərkəzi"nə çevrilməsi və fəaliyyətinin genişləndirilməsi (Mart, 2025)	Karyera və məzunlarla iş Mərkəzi Əlavə təhsil şöbəsi	**Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorluq** **Elm və innovasiyalar üzrə prorektorluq** **Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq**
	6.2. Dayanıqlı inkişaf üzrə tədqiqat, təhsil və sosial əməkdaşlığı təşviq etmək məqsədilə "Dayanıqlı İnkişaf Mərkəzi"nin yaradılması	• Dayanıqlı inkişaf Mərkəzinin yaradılması (Oktyabr, 2024)	Karyera və məzunlarla iş Mərkəzi Tədris Metodik Mərkəz Keyfiyyət təminatı və strategiya şöbəsi	
	6.3. İş dünyasının və cəmiyyətin ehtiyaclarına uyğun araşdırma və maarifləndirmənin aparılması	• Sektorun mütəxəssisləri və professor-müəllim heyətinin iştirakı ilə iş dünyası və cəmiyyətin ehtiyaclarına uyğun müxtəlif məzmunlu seminarların (ömürboyu öyrənmənin əhəmiyyəti, karyera inkişafı, şəxsi inkişaf və s.) təşkili (hər il	Karyera və məzunlarla iş Mərkəzi	

		minimum 3 tədbir) – 10 görüş, dəyirmi masa və ya seminar hər il (Dekabr, 2028)		
	6.4. Universitetin profilinə uyğun sahələrdə cəmiyyətin tələblərinə uyğun olan proqramların hazırlanması və tətbiqi	• Qısa müddətli kursların sayının hər il 10% artırılması (2028-ci ilə qədər müntəzəm olaraq) • Yenidənhazırlanma və təkrar ali təhsil imkanları ilə daha əvvəl əldə olunan ixtisasın dəyişdirilməsinin həyata keçirilməsi - (ali məktəblərin professor-müəllim heyəti və kolleclərin ixtisas-fənn müəllimləri üçün ixtisasartırma kursları) illik 50 nəfər (2024-2028); • Sənaye ilə əməkdaşlıq və biznes dünyasının müxtəlif ehtiyaclarına xidmət edən qısamüddətli proqramların təşkili – illik 5 proqram (2024-2028)	"Ömürboyu öyrənmə mərkəzi" Karyera və məzunlarla iş Mərkəzi Tədris Metodik Mərkəz Fakültələr	
	6.5. Təhsil proqramlarının məzmununda dayanıqlı inkişaf hədəflərinin nəzərə alınması	• Təhsil proqramlarının dayanıqlı inkişaf məqsədlərinə uyğunluğunun təhlili və yenilənməsi – illik ən az 10 proqram (2024-2028) • Akademik heyətin bu istiqamətdə təlimlərə cəlb olunması – proqram sayına uyğun olaraq tədris prosesində iştirak edən heyət (2024-2028) • Elmi-tədqiqat işlərinin dayanıqlı inkişaf məqsədlərinə uyğunluğunu təmin etmək üçün mexanizmin hazırlanması və tətbiqi (Mart, 2025)	Tədris Metodik Mərkəz Fakültələr	
	6.6. Tələbə və məzunların karyera hədəflərinə nail olmalarına dəstək olmaq, əmək bazarı ilə əlaqələr qurmaq və iş axtarma proseslərinə rəhbərlik edilməsi məqsədi ilə "Karyera və məzunlarla iş mərkəzi"nin işinin təkmilləşdirilməsi;	• Karyera və məzunlarla iş mərkəzin işinin səmərəliliyinin artırılması üçün məzunların fəaliyyətinin izlənilməsi mexanizmini qurmaq və SDU-da "Alumni" hərəkatı yaratmaq (2024-2028)- 1 mexanizm sənədi • Karyera mərkəzinə tələbələrin öz potensiallarını tam şəkildə həyata keçirmələrinə və iş dünyasında uğurlu olmalarına kömək etmək məqsədi ilə təcrübəli karyera inkişaf etdirmə məsləhətçilərini cəlb etmək (Dekabr, 2024)	Karyera və məzunlarla iş Mərkəzi	

SM7: İnfrastruktur, maddi-texniki baza və rəqəmsallaşmanın inkişaf etdirmək	7.1. Universitet heyətinin effektiv çalışması, eləcə də təhsilalanların öyrənmə, tədqiqat və sosial qarşılıqlı əlaqəsi və inklüziv təhsilin təşkili üçün infrastrukturun tədricən yenilənməsi	• 3-cü korpusun/ tədris binasının əsaslı təmiri (Dekabr, 2024) • Polimer İnstitutunun bir korpusunun / tədris binasının SDU-ya verilməsi və əsaslı təmiri – (Dekabr, 2025) • Yeni binanın tikilməsi məsələsi üçün danışıqların aparılması - il boyu (Binanın tikilməsi, 2028)	Təsərrüfat şöbəsi	**Elm və innovasiyalar üzrə prorektorluq** **Sosial məsələlər üzrə prorektorluq** **Texniki-təchizat departamenti**
	7.2. Yeməkxana mühiti və idman meydançasının tələblərə uyğun yenilənməsi	• Universitetin binalarındakı yeməkxanaların müasir tələblərə uyğun yenilənməsi (Dekabr, 2025)	Təsərrüfat şöbəsi	
	7.3. Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədilə auditoriyaların lazımi avadanlıqlara (ağıllı lövhə, proyektor və s.) təchiz olunması	• Tədris binalarının simli və simsiz yüksək sürətli internetlə təmin olunması və serverin müasir tələblərə uyğunlaşdırılması (2024/25-ci tədris ili) • Auditoriyaların zəruri avadanlıqlarla təchiz edilməsi - 20% (2026)	İnformasiya Texnologiyaları Mərkəzi Təsərrüfat şöbəsi	
	7.4. Elektron universitet və elektron sənəd dövriyyəsi sisteminin qurulması	• Elektron universitet və sənəd dövriyyəsi üçün alt sistemin qurulması və tətbiqi (Dekabr, 2026) • Universitet əməkdaşlarına və tələbələrə elektron sənəd idarəetməsi və rəqəmsal proseslər üzrə təlimlərin keçirilməsi - ildə minimum 4 təlim (2028-ci ilə qədər müntəzəm olaraq)	İnformasiya Texnologiyaları Mərkəzi Təsərrüfat şöbəsi Kadrlar şöbəsi Fakültələr	